DÜNYA XƏBƏRLƏRİ

Rusiyanın Ukraynaya zərbələrindən 3 nəfər həlak olub

Noyabr 06, 2026



Kiyev vilayətinin Brovarı rayonu

Noyabrın 12-nə keçən gecə Rusiya ordusu Ukraynanın bir sıra bölgələrinə hücum edib.


Ukraynanın qərbində yerləşən Rovno vilayətində Rusiya hərbçiləri enerji obyektlərini və yaşayış məntəqələrini hədəfə alıblar. Bəzi yerlərdə elektrik enerjisinin verilişi kəsilib. Ümumilikdə 160-a yaxın yaşayış məntəqəsinin işıqsız qaldığı bildirilir.

Xarkov vilayətində son sutka ərzində Rusiya ordusunun açdığı atəşlər nəticəsində iki nəfər həlak olub, daha yeddi nəfər, o cümlədən iki uşaq yaralanıb.

Rusiyanın Xerson vilayətinə endirdiyi zərbələr nəticəsində bir nəfər həlak olub.

Zaporojye vilayətində isə 15 nəfər, o cümlədən bir uşaq xəsarət alıb.

Ukrayna tərəfi Rusiya hərbçilərinin gecə ərzində ballistik raketlər və 100-dən çox dron buraxdığını açıqlayıb.



Sankt-Peterburqda polkovnik öldürülüb

Noyabrın 12-də səhər saatlarında Sankt-Peterburqun Puşkin rayonunda avtomobilin partladılması nəticəsində Rusiya ordusunun polkovniki həlak olub. Rusiya mediasının yazdığına görə, partlayış hərbçi yaşadığı evin həyətindən avtomobillə çıxarkən baş verib.

"Fontanka"nın məlumatına görə, partlayıcı qurğu avtomobilin alt hissəsinə bərkidilib və məsafədən işə salınıb.

Rusiya İstintaq Komitəsi hadisə ilə bağlı cinayət işinin açıldığını bildirib.

Partlayış avqust ayında Rusiya Hava Hücumundan Müdafiə Qoşunlarının polkovnik-leytenantının öldürüldüyü yerdən təxminən 500 metr aralıda qeydə alınıb. Şuşarı qəsəbəsindəki Slavyanka mikrorayonunda törədilmiş həmin hadisədə də partlayıcı qurğu hərbçinin avtomobilinə bərkidilmişdi.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur